DÖVLƏT VERGİ XİDMƏTİ

# Xarici valyuta hesabına daxil olan sərəncamın icrası barədə

Bank hesabında xarici valyutada olan pul vəsaiti vergi orqanının sərəncamı daxil olduğu gündən 10 bank günü ərzində vergi ödəyicisi tərəfindən konvertasiya edilmədikdə, növbəti iş günü ərzində Azərbaycan Respublikası Mərkəzi Bankının elan etdiyi məzənnə ilə xarici valyutada olan dondurulmuş pul vəsaiti bank tərəfindən konvertasiya edilməklə sərəncam icra edilir.

195
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

**Nə dəyişdi?**

❖ **Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən**

Yuxarıda qeyd edilən 10 bank günü müddətində vergi orqanı tərəfindən yeni sərəncam göndərildiyi halda həmin sərəncamda göstərilən vergi borcunun məbləği vergi orqanının əvvəlki sərəncamına münasibətdə

- **azalmışdırsa**, yuxarıda qeyd edilən müddəti əvvəlki sərəncamın tarixindən,
- **artmışdırsa**, əvvəlki sərəncamda göstərilən vergi borcu üzrə həmin sərəncamın tarixindən, artan vergi borcu məbləğinə münasibətdə isə yeni sərəncamın daxil olduğu tarixdən hesablanır.

BAKI — 2022